N43 (1090) 31 oktyabr - 6 noyabr 2019-cu il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# İlham Əliyev: “Mən tam əminəm ki, Azərbaycan bundan sonra da sabitlik, inkişaf və tərəqqi yolu ilə gedəcək”

**Qəbələnin timsalında biz ölkəmizin uğurlu inkişafını görürük**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonunda səfərdə olub. Dövlətimizin başçısı Qəbələ rayonunun Vəndam qəsəbəsində dekorativ gülçülük istixanası ilə tanış olub.

Dövlətimizin başçısına istixanada görülən işlərlə bağlı məlumat verilib. “AzRose” MMC-nin direktoru Nicat Mirzəyev bildirib ki, ölkəmizdə ənənəvi və ixrac potensialı yüksək sahələrdən biri də gülçülükdür. Bu sahənin Azərbaycanda ənənəvi xarakter daşıdığını, hələ sovet dövründə bu sahədə ciddi işlərin həyata keçirildiyini nəzərə alsaq, gülçülüyün ölkəmizdə yenidən inkişaf etdirilməsi ilə bağlı görülən işlər təqdirəlayiqdir. Çünki bu sahədə əldə olunan məhsullara dünya bazarında böyük tələbat var. Statistik göstəricilərə görə, dünya üzrə ildə təxminən 3 ton qızılgül yağı istehsal olunur. Bu bazarda Azərbaycanın da təmsil olunması ölkəmizə yeni valyuta axınını təmin edəcək, digər tərəfdən də “Made in Azerbaijan” brendinin dünyada daha da məşhurlaşmasına səbəb olacaq.

“AzRose” hazırda daxili bazarın 60 faizini güllə təmin edir.

* * * * *

Oktyabrın 28-də Qəbələ rayonunda 110/35/10 kilovoltluq “Qəbələ” elektrik yarımstansiyası yenidənqurmadan sonra istismara verilib.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yarımstansiyada yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

“Azərişıq” ASC-nin sədri vəzifəsini icra edən Vüqar Əhmədov bildirib ki, yarımstansiyada 110/35/10 kV-luq 40 MVA gücündə iki yeni transformator quraşdırılıb, bununla da yarımstansiyanın gücü artırılaraq 80 MVA-ya çatdırılıb. Yarımstansiyanın yenidən qurulması ilə 110 kV-luq qidalandırıcı elektrik verilişi xətlərinin əlaqələnmə sxemlərinin dəyişdirilməsi mümkün olub. Bununla da “Şəki” Elektrik Stansiyası, “Ağsu” və “Ağdaş” qovşaq yarımstansiyaları arasında 110 kV-luq dairəvi elektrik təchizatı sxeminin etibarlılığı artırılıb.

Qəbələ rayonunda 21375 abonent, o cümlədən 20112 əhali və 1263 qeyri-əhali abonenti və bir sıra istehsal və infrastruktur obyektlərinin elektrik enerjisi ilə təminatı yaxşılaşdırılıb. Yarımstansiya müasir standartlara cavab verən elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib, 110, 35 və 10 kV-luq yeni paylayıcı qurğular inşa olunub və məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub.

Prezident İlham Əliyev “Qəbələ” elektrik yarımstansiyasını, eyni zamanda, 110/35/10 kilovoltluq “Ağdaş” elektrik yarımstansiyasını işə salıb.

* * * * *

Oktyabrın 28-də Qəbələ şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına məlumat verib ki, qədim tarixə və zəngin turizm imkanlarına malik Qəbələ şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə icra olunan layihə artıq yekunlaşıb. Bu layihənin icrası Azərbaycan hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi “Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi”, həmçinin dövlət investisiya proqramı çərçivəsində həyata keçirilib. Layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Qəbələ şəhərində 30 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərinin istifadəsinin yaxşılaşdırılmasına hesablanıb.

* * * * *

Oktyabrın 28-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

“Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov bildirib ki, qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər öz bəhrəsini verir.

Qeyd olunub ki, bu sahənin inkişafına xüsusi diqqət və qayğı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib və bəzi regionlarda yeni fabriklərin açılması istiqamətində işlər gedir. Hazırda dövlət səviyyəsində bu fabriklərin yerli istehsal hesabına xammalla təmin olunması diqqət mərkəzindədir. Bu sırada təbii ki, Qəbələdəki xalça fabriki də fərqlənir. Müəssisədə əsasən Şamaxı, Ağdaş, Ağsu, Kürdəmir, Hacıqabul, Göyçay, Zərdab, İsmayıllı, Qobustan, Ucar, Qəbələ, Qax, Zaqatala və Oğuz rayonlarının kəndlərində toxunan tarixi və orijinal Şirvan xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb.

* * * * *

Oktyabrın 28-də Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidənqurmadan sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov bildirib ki, hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur.

Diqqətə çatdırılıb ki, Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolu 10 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirir. Bu yolun inşası əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin kənd təsərrüfatı məhsullarının vaxtında bazarlara və digər satış məntəqələrinə çatdırılmasına şərait yaradacaq.

Prezident İlham Əliyevə rayonun Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi barədə də məlumat verilib.

# Ağdaş rayonunun inkişafı üçün hər cür şərait yaradılır



Oktyabrın 28-də Ağdaş rayonunda yenidən qurulan Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolu istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avtomobil yolunun açılış mərasimində iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verib ki, Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı yolunun uzunluğu 33 kilometr, hərəkət hissəsinin eni 6 metrdir. Dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılmış 12,7 milyon manat vəsait hesabına salınmış yol əhatə etdiyi 10 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında, eləcə də insanların həyat tərzinin və rifah halının yüksəlməsində mühüm əhəmiyyət kəsb edəcək.

Sonra dövlətimizin başçısına rayonun Orta Qəsil-Şordəhnə-Qarağan Şıxlar-Kükəl-Ərəb-İkinci Aral avtomobil yolunun və Nehrəxəlil-Kotanarx-Cardam-Tofiqi-Şəmsabad avtomobil yolunun tikintisi layihəsi barədə məlumat verilib.

* * * * *

Oktyabrın 28-də Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istismara verilib.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb və çıxış edib. O, deyib:**

- Bu, Prezident kimi mənim Ağdaş rayonuna beşinci səfərimdir. Hər səfərdə biz hansısa önəmli layihənin ya təməl daşını qoyuruq, ya da ki, açılışını qeyd edirik, o cümlədən bu gün. Artıq neçə vaxtdır ki, Ağdaş şəhərinə içməli suyun verilməsi təmin edilibdir. Bu gün isə bu gözəl layihənin rəsmi açılışını qeyd edirik. Bu, doğrudan da çox böyük hadisədir. Həm içməli su, həm kanalizasiya layihəsi tam başa çatıb və şəhər əhalisi 24 saat ərzində təmiz içməli su ilə təmin olunur. Bu suyun keyfiyyəti də Dünya Səhiyyə Təşkilatının bütün standartlarına cavab verir.

Onu da bildirməliyəm ki, bu gün Qəbələ şəhərinin də içməli su layihəsi artıq icra edildi, açılışı oldu. Ancaq Qəbələ şəhərində 15 min əhali varsa, Ağdaş şəhərində bu, 35 mindir. Ona görə də burada gələcəkdə görüləcək işlər elə hesablanmalıdır ki, artan əhali də nəzərə alınsın. Buna görə “Azərsu”ya da göstəriş verildi ki, bu layihə təqribən gələcək 20-30 ili də ehtiva etsin ki, artan əhali bu imkandan istifadə edə bilsin.

Bu gün “Ağdaş” elektrik yarımstansiyası da fəaliyyətə başlayıb. Elektrik enerjisi ilə bağlı heç bir problem olmamalıdır, yoxdur və olmayacaq. İçməli su layihəsi icra edilib, qazlaşdırma 80 faiz səviyyəsindədir. Mənə dedilər ki, cəmi 19 kənddə hələ qaz yoxdur. İndi Azərbaycan Dövlət Neft Şirkətinə tapşırıq verirəm ki, o 19 kəndə də qısa müddət ərzində qaz xətləri çəkilsin.

Avtomobil yollarının tikintisi. Son 2 il ərzində Ağdaşda yüz kilometrdən çox kənd yolları salınıb. Yəni, bu sosial infrastruktur layihələri öz həllini tapır. Modul tipli 28 sutəmizləyici qurğu fəaliyyət göstərir. Beləliklə, rayonun hərtərəfli inkişafı üçün şərait yaradılır. Yeni müəssisələr yaradılır, o cümlədən biyan kökü istehsalı və emalı zavodu. O da çox böyük sənaye müəssisəsidir ki, burada işsizlik olmasın, vətəndaşlar işlə təmin edilsinlər. Həmçinin onlar yaxşı tibbi xidmət alsınlar, təmiz sudan içsinlər və sağlam olsunlar. Məqsədimiz budur.

* * * * *

Oktyabrın 28-də Ağdaş Rayon Telekommunikasiya Qovşağında “Şəbəkə” Xidmət Mərkəzi istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Şəbəkə” Xidmət Mərkəzi ilə tanış olub.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və “Aztelekom” MMC-nin baş direktoru Suat Paşayev xidmətin fəaliyyət istiqamətləri barədə dövlətimizin başçısına məlumat veriblər.

Diqqətə çatdırılıb ki, “Şəbəkə” Xidmət Mərkəzində poçt xidmətləri, bütün növ ödənişlər, telefon çəkilişləri, internetə qoşulma, IMEI qeydiyyat, elektron hökumət, elektron imza, valyuta mübadiləsi, aviabiletlərin və turpaketlərin satışı və digər bir çox xidmət növləri təqdim olunacaq.

* * * * *

Oktyabrın 28-də Ağdaşda “Biyan Products” MMC-yə məxsus Biyan Sənaye Parkının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Biyan Sənaye Parkının direktoru Ramin Məmmədov dövlətimizin başçısına məlumat verib ki, bu park Azərbaycan brendi ilə istehsal olunan məhsullara yeni nümunələr əlavə edəcək. Müəssisənin yaradılmasında məqsəd müasir texnologiyalardan istifadə edərək, emal olunmuş biyan kökü və biyandan hazırlanan 100 faiz bitki mənşəli, bioloji fəallığa malik qida əlavələrini dünya bazarına çıxarmaqdır.

Müəssisə saatda 2300 kiloqram biyan kökü emal etmək gücündədir. Zavodda Türkiyənin “Bigtem” şirkətinin istehsalı olan müasir avadanlıq quraşdırılıb.

Məhsulun ilk nümunələri İrana göndərilib. Gələcəkdə məhsulların ABŞ, Koreya, Hindistan, Misir və Avropa ölkələrinə ixracı da nəzərdə tutulur.

Biyan Sənaye Parkında ildə 7500 ton biyan kökünün və 100 min ədəd biyan şərbətinin “Made in Azerbaijan” brendi ilə ixracı planlaşdırılır.

# Görkəmli xanəndə Hacıbaba Hüseynovun xatirəsi yad olunub





Oktyabrın 29-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında musiqi sənətinin görkəmli nümayəndəsi, tanınmış pedaqoq, respublikanın Xalq artisti Hacıbaba Hüseynovun 100 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbir Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Hacıbaba Hüseynovun anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirlər planı çərçivəsində hazırlanıb.

Dövlət və hökumət rəsmilərinin, habelə respublikanın tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirak etdikləri tədbirdə əvvəlcə sənətkarın ifalarının yer aldığı videoçarx nümayiş olunub.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, akademik Rəfael Hüseynov çıxış edərək görkəmli xanəndənin ömür yolu və musiqi mədəniyyəti sahəsində xidmətlərindən danışıb. Bildirib ki, muğam sənətinin inkişafında müstəsna xidmətləri olan Hacıbaba Hüseynov özünəməxsus səs tembri və texnikası olan sənətkarlardan hesab olunur. Xanəndənin sənət dünyasının bənzərsiz olduğunu deyən R.Hüseynov onun muğam məktəbinin təkmilləşməsindəki fəaliyyətini xüsusi vurğulayıb. Qeyd edib ki, xanəndənin sənəti, ədəbi yaradıcılığı, bəstələri, təsnifləri muğam sənətimiz var olduqca yaşayacaq.

Qeyd edilib ki, gənc yaşlarında tanınmış xanəndə Zülfü Adıgözəlovun səs yazısını əldə edən Hacıbaba Hüseynov onun oxuduqlarını təkrar edərək muğamın incəliklərini öyrənib. Xanəndənin zəhmətsevərliyi və sənət axtarışları nəticəsində əldə etdiyi ifaçılıq texnikası, poeziya və muğamı yüksək bədii zövqlə uzlaşdırma qabiliyyəti muğam biliciləri və musiqisevərlər tərəfindən yüksək dəyərləndirilib. Sənətkarın xatirəsi ürəklərdə daim yaşayır.

Tədbirdə Xalq artisti, bəstəkar Tofiq Bakıxanov, Xalq artisti, xanəndə Arif Babayev, Milli Məclisin komitə sədri, akademik Ziyad Səmədzadə çıxış edərək unudulmaz sənətkarın muğam sənətinin inkişafı üçün gördüyü işlərdən, sənətə olan vurğunluğundan bəhs edib, onunla bağlı xatirələrini bölüşüblər.

Diqqətə çatdırılıb ki, Hacıbaba Hüseynov güclü hafizəsi sayəsində eşitdiyi musiqi nümunələrini, muğamları dərindən mənimsəyib, əruz vəzninin qanunlarına əsasən qəzəllər yazmağa başlayıb.

Qeyd edilib ki, Hacıbaba Hüseynov "Rast" muğamının "Üşşaq" və "Hüseyni" şöbələrinin ilk ifaçısı olub. O, uzunillik xanəndəlik təcrübəsi nəticəsində Azərbaycan milli musiqisini dərindən öyrənmək, ifa və təbliğ etmək yolunda xüsusi nailiyyətlər əldə edib. Sənətkar Fransa, Niderland, Danimarka, Belçika, Türkiyə, İran və bir sıra başqa ölkələrdə qastrol səfərlərində Azərbaycan muğamını böyük ustalıqla ifa edib, incəsənətimizin təbliğində böyük xidmətlər göstərib.

Milli musiqi mədəniyyəti sahəsindəki xidmətlərinə görə o, 1989-cu ildə "Əməkdar artist", 1990-cı ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülüb.

Tədbir respublikanın tanınmış muğam ifaçılarının konsert proqramı ilə davam edib.

## Belçika: "manqal vergisi"




3,5 milyon sakini olan Valloniya şəhərinin yerli hökuməti 2007-ci ildə qlobal istiləşməyə qarşı mübarizə məqsədilə manqalda hazırlanan yeməklər üçün vergi qoymağı qərara alıb.

Belə hesab edilir ki, manqalda yemək hazırlanarkən atmosferə 50-100 qram istixana qazı atılır. Ona görə də Belçikada bu regionun hər bir sakini öz həyətində manqal qalamazdan əvvəl 20 avro ödəniş etməlidir. Valloniya hakimiyyəti tərəfindən bu qanuna riayət olunması üçün ciddi yoxlamalar aparılır. Yoxlamalar zamanı hətta xüsusi kameralarla təchiz edilmiş vertolyotlardan da istifadə olunur.

## ABŞ-ın büdcə kəsiri 1 trilyona çatır



"2019 maliyyə ilində ABŞ federal büdcəsinin defisiti 26% artıb". Bunu ABŞ Maliyyə naziri Stiven Mnuçin deyib.

Onun sözlərinə görə, hazırda ölkə büdcəsinin defisiti 984 milyard dollara çatıb. Bu, keçən ilin göstəricisindən 205 milyard dollar çox olub.

Bununla belə bu, 2012-ci ildən bu günə qədər yana qeydə alınan ən böyük göstərici olub.

## Deutsche Bank zərərə düşüb

Almaniyanın iri maliyyə təşkilatı Deutsche Bank yenidənqurmanın təsiri ilə 2019-cu ilin 3-cü rübündə zərər etdiyini açıqlayıb.

Bank 3-cü rübdə xalis 832 milyon avro zərər edib. Analitiklər 772 milyon avro zərər gözləyirdilər.

3-cü rübdə Deutsche Bank-ın gəlirləri 5,53 milyard avro olan proqnoza qarşı 5,26 milyard avro təşkil edib.

Deutsche Bank yenidənqurma proqramını tətbiq edir.




## İtaliyanın Baş naziri 2020-ci ildə vergiləri azaldacağını vəd edib

Baş nazir Cüzeppe Konti mətbuata verdiyi açıqlamada bildirib ki, vergilərin aşağı salınması əvvəlki kimi yenə də İtaliya hökumətinin qarşıya qoyduğu əsas vəzifələrdən biridir. Nəzərdən keçiriləcək vergilər arasında fiziki şəxslərin gəlir vergisinin 27 və 23 faizdən 20 faizə salınması var.

İtaliya hökumətinə müxalif qüvvələr isə bildiriblər ki, ölkənin liberal-populist hökuməti müntəzəm şəkildə vergilərin dərəcəsini azaldacağını bəyan etsə də, onu yalnız qaldırmaqla məşğuldur:



- hökumətin təşəbbüsləri nəticəsində 2020-ci ildə ölkə vətəndaşlarının vergi yükü 12 milyard avro artacaq.

## Ən böyük avtomobil istehsalçısının mənfəəti artıb

Almaniyanın avtomobil istehsalçısı Volkswagen AG (VW) üçüncü rüb balansını açıqlayıb.

2019-cu il üçün avtomobil satışı proqnozunu aşağı salan alman istehsalçı, qlobal avtomobil bazarında gözləniləndən sürətli yavaşlama olduğuna işarə edib.



Dünyanın ən böyük avtomobil istehsalçısının mövcud proqnozu təhvil sayının bu il dəyişməz qalacağı istiqamətindədir. Şirkətin daha əvvəlki proqnozu bir miqdar artım olacağı şəklində idi.

Şirkət ilin ilk doqquz aylıq dövründə (yanvar-sentyabr) əməliyyat mənfəətini 11% artıraraq 14.8 milyard avro (16.5 milyard dollar) səviyyəsinə yüksəldib.

Üçüncü rübdə (iyul-sentyabr) əməliyyat mənfəəti 4.82 milyard avro təşkil edib və 4.10 milyard avroluq proqnozu geridə qoyub.

VW-nin eyni dövrdəki satış gəliri 61.42 milyard avro olub.

## E L A N

**Məlumat üçün bildiririk ki, "Günay Sığorta" ASC-nin faktiki ünvanı 01.10.2019-cu il tarixindən Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 75C ünvanına köçürülmüşdür. Xatırladaq ki, Cəmiyyətin Baş Ofisi bu günə qədər paytaxtın Nərimanov rayonu, Balaəmi Dadaşov 31/11 ünvanında fəaliyyət göstərmişdir. Qeyd olunan dəyişikliyi nəzərə almağınızı xahiş edirik.**

## ABŞ: "qaralma vergisi"

ABŞ hökumətinin öz vətəndaşlarının sağlamlığının qayğısına qalmaq məqsədilə həyata keçirdiyi islahatlar çərçivəsində müxtəlif tədbirlər müəyyənləşdirib. Bunlardan biri də "qaralma vergisidir".




Solyaridə qaralmaq istəyən hər bir ABŞ vətəndaşı xidmətin 10 faizi həcmində əlavə ödəniş etmək məcburiyyətindədir.

## ALLAH RƏHMƏT ELƏSİN

AMEA İqtisadiyyat İnstitutunun kollektivi İnstitutun aparıcı elmi işçisi i.f.d.
**RAUF RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə
dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**

# Azərbaycanın beynəlxalq nüfuzunun növbəti təntənəsi



**Qoşulmama Hərəkatına sədrlik Azərbaycana keçib**

***Oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirilib.***

"Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər. Ümumilikdə Zirvə Görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar.

Qoşulmama Hərəkatına sədrlik edən Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Zirvə Görüşünü açaraq çıxışında Venesuelanın sədrliyi dövründə Qoşulmama Hərəkatının böyük inkişaf yolu keçdiyini, dünyada sülhün və təhlükəsizliyin güclənməsinə xidmət göstərdiyini deyib və növbəti üç il üçün sədrliyin Azərbaycana keçdiyini bəyan edib.

**Qoşulmama Hərəkatının sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə Görüşündə nitq söyləmişdir. O, demişdir:**

- Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliğinə xidmət edir və bütün ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə sadiqliyini nümayiş etdirir. Qoşulmama Hərəkatı özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.

Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunmuşdur. Qoşulmama Hərəkatında olduğu qısa müddət ərzində ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanmışdır.

Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. Bu, ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür.

Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Azərbaycanın dövlət müstəqilliyinin cəmi 28 yaşı var. Bir həftə öncə - oktyabrın 18-də müstəqilliyimizin bərpa olunması gününü qeyd etdik. Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon - ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Xocalı soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınmışdır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır.

Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər.

Azərbaycan müstəqil xarici siyasət yeridir. Bu siyasət milli maraqlara, ədalətə əsaslanır və bizə çoxlu dostlar qazandırmışdır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi buna bariz nümunədir. Ölkəmiz Rusiya-NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə ev sahibliyi edir. Dünyada 200-ə qədər ölkə vardır.

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Azərbaycana 270 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada 9-cu yerdəyik. Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Təkcə bu il minimum əməkhaqqı və sosial müavinətlər iki dəfə, minimum pensiya 70 faiz artmışdır. 280 mindən çox insanı əhatə edən 68 min ailə ünvanlı sosial yardımdan faydalanır və hər bir ailə təxminən 140 ABŞ dolları ekvivalentində aylıq sosial yardım alır. Son 15 il ərzində Azərbaycanda 3200-dən çox məktəb və 640-dan çox xəstəxana və tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Üç yüz mindən çox məcburi köçkün pulsuz evlər və mənzillərlə təmin edilmişdir. Məcburi köçkün ailələrinə orta hesabla 180 ABŞ dolları ekvivalentində aylıq müavinət verilir.

Azərbaycanın əldə etdiyi nailiyyətlər beynəlxalq aləmdə təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir.

Azərbaycan kosmik ölkədir. Hazırda ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən üç peykimiz var. Əhalimizin 80 faizi internet istifadəçisidir.

Azərbaycanda enerji təhlükəsizliyi təmin edilmişdir. Yenə də Davos Ümumdünya İqtisadi Forumunun hesabatına istinad edərək deməliyəm ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Azərbaycan, eyni zamanda, bir sıra ölkələrin enerji təchizatçısıdır. Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - Cənub-Qərb və Şimal-Qərb layihələri üzərində çalışırıq. Beləliklə, Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa öz dəyərli töhfəsini verir.

İqlim dəyişikliyi qlobal təhlükədir. Azərbaycan onun fəsadlarına qarşı mübarizə üzrə beynəlxalq səyləri dəstəkləyir. Azərbaycan Paris Sazişini ratifikasiya etmiş, baza ili – 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürmüşdür. Elektrik enerjisinin istehsalı üçün Azərbaycanda ancaq ekoloji təmiz qaz və su elektrik stansiyalarından istifadə olunur.

Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. On bir il əvvəl İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin iştirakı ilə başladığımız "Bakı Prosesi" təşəbbüsü BMT tərəfindən də dəstəklənir. BMT-nin Baş katibi Antonio Quterreş "Bakı Prosesi"ni 2008-ci ildən bəri mədəniyyətlər arasında dialoqun təbliğinin ön cəbhəsi kimi dəyərləndirmişdir.

Hörmətli qonaqlar, əminəm ki, Zirvə Görüşü çərçivəsində aparılacaq müzakirələr Qoşulmama Hərəkatının gündəliyində duran hədəflərin həyata keçirilməsinə xidmət göstərəcəkdir. Azərbaycan Hərəkata sədrlik edəcəyi müddətdə öz prioritetlərini üzv dövlətlərlə birgə həyata keçirmək üçün ardıcıl səylər göstərəcəkdir.

* * * * *

Sonra Zirvə Görüşü Prezident İlham Əliyevin sədrliyi ilə davam etmişdir.

# Bakı-Supsa və BTC dəhlizin bütün ölkələrinin təhlükəsizliyinə töhfə verir



Gürcüstan ərazisində həyata keçiriləcək istənilən iri regional layihə ölkənin təhlükəsizliyi və sabitliyini möhkəmləndirəcək. Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa boru kəmərləri Gürcüstan ərazisindən keçir, lakin bu layihələr ölkəyə məxsus deyil. Bu layihələr regional əhəmiyyətə malikdir və dəhlizin bütün ölkələrinin təhlükəsizliyinə töhfə verir.

Bu sözləri Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri Natia Turnava "1TV.ge" (birinci kanal) kanalındakı "Sərbəst baxış" proqramında ölkə ərazisində inşa olunan dərin özüllü "Anaklia" limanı layihəsinin əhəmiyyəti ilə bağlı sualı cavablandırarkən deyib.

Onun sözlərinə görə, hər iki boru kəməri Gürcüstanın enerji təhlükəsizliyinə töhfə verən əsas amillərdəndir. "Anaklia" layihəsi Gürcüstan üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa neft kəmərləri qədər strateji əhəmiyyətə malikdir.

N.Turnava deyib ki, bu yaxınlarda keçirilən beynəlxalq Tbilisi İpək Yolu Forumunda bir çox ölkələrin nümayəndələri Gürcüstanda dərin özüllü dəniz limanının tezliklə inşa edilməsində maraqlı olduqlarını bildiriblər: "Layihə yalnız bizim deyil, digər ölkələrin də maraqlarına cavab verir".

# Sığorta bazarı genişlənir




Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri 522,5 milyon manat sığorta haqqı toplayıb, 201,7 milyon manat sığorta ödənişi həyata keçirib. Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına görə, könüllü sığorta bazarı üzrə haqlar 351,7 milyon manat, ödənişlər isə 143,4 milyon manat təşkil edib. İcbari sığorta bazarı üzrə haqlar 170,7 milyon manat, ödənişlər isə 58,3 milyon manat olub. 2019-cu ilin yanvar-sentyabr aylarında sektor üzrə məcmu sığorta haqlarının 67,3 faizi könüllü, 32,7 faizi isə icbari sığorta növlərinin payına düşüb. Sığorta ödənişlərinin 71,1 faizi könüllü, 28,9 faizi icbari sığorta növləri hesabına formalaşıb.

Qeyri-həyat sığortasının könüllü növlərində 2 faiz və yaxud 3,7 milyon manat, icbari növlərində isə 7 faiz və yaxud 9,1 milyon manat olmaqla sığorta haqlarının artımı davam edib. Könüllü növlərdə ən böyük artım tibbi sığorta üzrə qeydə alınıb. Belə ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz və yaxud 9 milyon manat artım müşahidə edilib. Könüllü növlər üzrə əmlak sığortası növlərindən nəqliyyat vasitələrinin sığortasında da (avtonəqliyyat vasitələrinin sığortası 26 faiz və yaxud 5,3 milyon manat, su nəqliyyat vasitələrinin sığortası 29 faiz və yaxud 1,7 milyon manat, hava nəqliyyatı vasitələrinin sığortası 6 faiz və yaxud 0,6 milyon manat) artım qeydə alınıb.

İcbari sığortalar üzrə sığorta haqları keçən ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz və yaxud 17,1 milyon manat artıb. Qeyri-həyat sığortasının icbari növləri üzrə artımın əsas drayverləri avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (5 faiz və yaxud 3,6 milyon manat artım), daşınmaz əmlakın icbari sığortası (21 faiz və yaxud 4,9 milyon manat artım) və məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası (9 faiz və yaxud 1,1 milyon manat artım) növləri olub.

Vergi sahəsində aparılmış islahatlar nəticəsində daha öncə təklif edilən vergi güzəştlərinin və həyatın yaşam sığortasına yönəldilən vəsait üzrə limitin azaldılması ilə əlaqədar ümumilikdə həyat sığortasında azalma olsa da, sosial-iqtisadi əhəmiyyət daşıyan növlərdən olan istehsalatda bədbəxt hadisə və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə 29 faiz (8,1 milyon manat) artım olub.

Ödənişlərdə keçən ilin müvafiq dövrü ilə müqayisədə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 10,4 milyon manat, hava nəqliyyatı vasitələrinin sığortası üzrə 5,4 milyon manat, avtonəqliyyat vasitələrinin sığortası üzrə 2,6 milyon manat artım olub. Azalma isə əsasən tibbi sığorta (1 milyon manat) və hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası (2 milyon manat ) üzrə olub. Sözügedən növlər üzrə ödənişlər müvafiq dövr ərzində hadisənin baş vermə intensivliyindən asılı olaraq dəyişib.

# Azərbaycan qlobal istedad rəqabətliliyi indeksində MDB-də liderdir




Azərbaycan "Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019" Hesabatında daha 14 pillə irəliləyərək 125 ölkə arasında 43-cü yerdə qərarlaşmaqla Baltik respublikaları istisna olmaqla postsovet məkanında lider mövqedədir.

Hesabatı şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı deyib:

- "Postsovet məkanında Azərbaycanın ən yaxın izləyiciləri Rusiya 49-cu və Qazaxıstan isə 57-ci yeri tutub. Azərbaycan bu indeksə görə 2015-2016-cı ildə 71-ci, 2017-ci ildə 66-cı və 2018-ci ildə 57-ci yerdə qərarlaşmışdı. Azərbaycan qlobal istedad rəqabətliliyi indeksinə görə yuxarı orta gəlirli ölkələr arasında top-3-lükdə qərarlaşmaqla daxil olduğu region - Qərbi Asiya və Şimali Afrika ölkələri arasında 7-cidir".

O bildirib ki, "Qlobal İstedad Rəqabətliliyi İndeksi" hesabatı 5 indikator əsasında hesablanır: istedada yaradılan şərait, istedadın cəlb edilməsi, istedadın inkişafı, istedadın ölkədə qalmasının təmin edilməsi, peşə və texniki təhsil, yüksək ixtisaslar. Azərbaycan bu indikatorlar üzrə ən yüksək reytinqi peşə və texniki təhsil (25-ci yer), ən aşağı reytinqi isə istedadın inkişafında (81-ci yer) alıb. Digər indikatorlar üzrə vəziyyətimiz belə olub: istedada yaradılan şərait 48-ci yer, istedadın cəlb edilməsi 44-cü yer, istedadın ölkədə qalmasının təmin edilməsi 41-ci yer və yüksək ixtisaslar 68-ci yer.

"Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019"-da Azərbaycan bir sıra sub-indikatorlarda daha öndə olub: işə götürmənin asanlığı 1-ci, aktiv əmək bazarı siyasəti 32-ci, işçi-işəgötürən əməkdaşlığı 30-cu, əməkhaqqının məhsuldarlığa uyğunluğu 14-cü, birbaşa xarici investisiyalar və texnologiya transferi 28-ci, istedadların cəlbi 17-ci, qadınların liderlik imkanları 34-cü, müəssisə daxilində əməkdaşlıq 26-cı, müəssisələr arasında əməkdaşlıq 19-cu, sosial müdafiə 33-cü, istedadların ölkədə saxlanılması 25-ci, həkim sıxlığı 26-cı, orta təhsilli əmək qüvvəsi 5-ci, orta təhsilli əhali 4-cü, ixtisaslı işçinin tapılması imkanı 30-cu, təhsilin iqtisadiyyata uyğunluğu 33-cü, orta təhsilin əmək bazarına uyğunluğu 20-ci, ali təhsilin əmək bazarına uyğunluğu 36-cı, ali təhsilli əhali 33-cü, alimlərin və mühəndislərin əlçatanlığı 23-cü yer. Hesabatın məqsədi innovasiya, artım və rəqabətliliyi gücləndirmək üçün fərdlərin və komandaların potensialı və istedadı ətrafında qlobal müzakirə açmaqdır", - deyə V.Qasımlı bildirib.

# "Bir kəmər, bir yol: Azərbaycan iqtisadiyyatı üçün nələr vəd edir?"



Oktyabrın 25-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Elm həftəsi" çərçivəsində "Bir kəmər, bir yol: Azərbaycan iqtisadiyyatı üçün nələr vəd edir?" mövzusunda elmi-praktik seminar keçirilib. UNEC-dən AZƏRTAC-a bildirilib ki, seminarda rektor Ədalət Muradov "Bir kəmər, bir yol" layihəsinin Azərbaycan iqtisadiyyatına böyük töhfələr verə biləcəyini qeyd edib və bu sahədə ciddi tədqiqatlara ehtiyac olduğunu bildirib.

Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə qədim İpək Yolunun bərpası ilə bağlı 90-cı illərin əvvəllərində onun rəhbərliyi ilə aparılan tədqiqatlardan söz açıb. Akademik Azərbaycanın qlobal dünya iqtisadiyyatında ən böyük layihə sayılan "Bir kəmər, bir yol"un fəal iştirakçısı olduğunu bildirib. Komitə sədri bu kimi layihələrin ilk növbədə ölkənin milli maraqlarına xidmət etdiyini vurğulayıb. Çinin əldə etdiyi iqtisadi uğurda məhz həmin milli maraqların qorunduğunu qeyd edib.

Milli Məclisin deputatı Tahir Mirkişili layihənin iqtisadi və geosiyasi tərəflərindən danışıb. Bu gün ən geniş ticarətin Avropa və Asiya arasında aparıldığını deyən Tahir Mirkişili dünya iqtisadiyyatının həcmini artırmaq üçün ölkələr arasında əlaqələrin genişləndirilməsinə ehtiyac olduğunu bildirib.

"Bir kəmər, bir yol" Alyansının baş katibinin elm və texnologiyalar üzrə müavini Li Renying UNEC-in təşəbbüsü ilə keçirilən tədbirin müvafiq layihədə Azərbaycanın və Çinin iqtisadi maraqlarının öyrənilməsi baxımından əhəmiyyətli olduğunu bildirib. Azərbaycanlı və çinli alimlərin birgə araşdırmalar aparmasına və yüksəkixtisaslı kadrlar hazırlanmasına ehtiyac olduğunu diqqətə çatdıran L.Renying unversitetlərin bu baxımdan böyük rol oynadığını diqqətə çatdırıb.

Çinli alim, həmçinin "Bir kəmər bir yol" layihəsinin məqsədi və perspektivləri barədə təqdimatla çıxış edib.

# Əmək qabiliyyətinin müvəqqəti itirilməsi zamanı vergi öhdəliyi

Əmək qabiliyyətinin müvəqqəti itirilməsi zamanı ödənişdən vergi tutulurmu?

Əmək Məcəlləsinin 74-cü maddəsinin qeyd hissəsinə əsasən, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə 14 gün üçün işəgötürənlər öz vəsaiti hesabına ödəniş həyata keçirdiyi halda, həmin ödənişdən gəlir vergisini tutaraq müvafiq qaydada muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsini vergi orqanına verməyə borcludurlar.




Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə 14 gündən çox olan günlər üçün ödənişlər isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirildiyindən, fond tərəfindən həmin ödənişlər üzrə gəlir vergisi hesablanmalı, hesablanmış vergi növbəti ayın 20-dən gec olmayaraq büdcəyə köçürülməli və muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

İşçiyə xəstəlik vərəqəsinə əsasən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə hər ay üzrə hesablanaraq ödənilən müavinətlər muzdla işləyən işçinin muzdlu işlə əlaqədar alınan aylıq gəlirinə aid edilməli və işçinin həmin aylardakı aylıq gəlirinin ümumi məbləğindən hər bir ay üzrə ayrılıqda Vergi Məcəlləsinin 101.1-ci maddəsində göstərilən cədvələ uyğun olaraq, Vergi Məcəlləsinin 102-ci maddəsində güzəşt və azadolmalar nəzərə alınmaqla işəgötürən tərəfindən ödəmə mənbəyində gəlir vergisi hesablanaraq tutulmalı, müvafiq qaydada bəyan edilməklə növbəti ayın 20-dən gec olmayaraq büdcəyə köçürülməlidir.

# Sahibkarlar yeni biznes əməkdaşlığının qurulması məsələlərini müzakirə ediblər

Azərbaycan ilə Rusiya sahibkarları yeni biznes əməkdaşlığının qurulması məsələlərini müzakirə ediblər.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazirliyin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Bakıda Azərbaycan-Rusiya işgüzar görüşü keçirilib.



Hər iki tərəfdən qida sənayesi, səhiyyə, bank, logistika, turizm və digər sahələrdə fəaliyyət göstərən 60-dan çox sahibkarın iştirak etdiyi tədbirdə Azərbaycanda biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan islahatlar barədə məlumat verilib, iş adamları fəal əməkdaşlığa dəvət olunub.

İştirakçılar, həmçinin Azərbaycan məhsullarının xarici bazarlarda tanıdılması və ixracın artırılması, "Made in Azerbaijan" brendinin təşviqi ilə bağlı görülən işlər barədə məlumatlandırılıb, Azərbaycanın və Sankt-Peterburqun iqtisadi-ticarət potensialı, investisiya imkanları barədə təqdimatlar olub.

Tədbir çərçivəsində sahibkarlar mövcud əlaqələrin genişləndirilməsi və yeni biznes əməkdaşlığının qurulması məsələlərini müzakirə ediblər.

# Azərbaycan qaz kəmərləri ilə nəqletməni artırmağı planlaşdırır



Azərbaycanın magistral qaz kəmərləri ilə 2023-cü ildə 37,8 mln. ton (maye ekvivalentində) qaz nəql ediləcəyi proqnozlaşdırılır ki, bu da 2019-cu il üçün olan proqnozla müqayisədə 66,5 faiz çoxdur.

"APA-Economics"in Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin zərfinə istinadən verdiyi məlumata görə, bu il ölkədə magistral qaz kəmərləri ilə 22,7 mln. ton qaz nəql ediləcəyi gözlənilir.

Sənədə əsasən, 2020-ci ildə respublikada 27,4 mln. ton, 2021-ci ildə – 32,7 mln. ton, 2022-ci ildə isə 35,5 mln. ton qazın nəqli proqnozlaşdırılır. Hesablamalara görə (0,72 əmsalından istifadə etməklə), 2019-cu ildə Azərbaycanda 31,5 mlrd. kubmetr, 2020-ci ildə – 38,1 mlrd. kubmetr, 2021-ci ildə – 45,4 mlrd. kubmetr, 2022-ci ildə – 49,3 mlrd. kubmetr, 2023-cü ildə isə 52,5 mlrd. kubmetrə yaxın qaz magistral kəmərlərlə nəql ediləcək.

Qeyd edək ki, 2018-ci ildə Azərbaycanda magistral qaz kəmərləri ilə 23,5 mlrd. kubmetrə yaxın (16,9 mln. ton) qaz nəql edilib.

# Avtonəqliyyat vasitələrinin sığortası 26% artıb

Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən avtonəqliyyat vasitələrinin sığortası üzrə 25,9 mln. manata yaxın sığorta haqqı toplanıb, 9,2 mln. manat məbləğində sığorta ödənişi həyata keçirilib.

Ötən ilin eyni dövrü ilə müqayisədə avtonəqliyyat vasitələrinin sığortası üzrə toplanan haqlar 25,7%, ödənişlər isə 39,4% çoxdur.



Qeyd edək ki, hesabat dövründə Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən 522,5 mln. manat (azalma 8,1%) məbləğində sığorta haqqı toplanıb, 201,7 mln. manat (artım 7,9%) məbləğində sığorta ödənişi həyata keçirilib.

# Bakıda IV Bankçılıq Forumu keçiriləcək

Azərbaycan Banklar Assosiasiyasının (ABA) təşkilatçılığı və Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və digər dövlət qurumlarının dəstəyi ilə noyabrın 6-7-də Bakıda ənənəvi "IV Beynəlxalq Bankçılıq Forumu – Nağdsız iqtisadiyyat: dayanıqlı bankçılığa doğru" mövzusunda forum keçiriləcək.




ABA-dan bildirilib ki, oktyabrın 29-dan noyabrın 8-dək "Nağdsız cəmiyyət günləri" çərçivəsində keçirilən forumun məqsədi iqtisadiyyatın nağdsızlaşdırılması ilə bağlı təşəbbüslərin və qarşıdakı çağırışların, rəqəmsallaşma, maliyyə texnologiyalarına dair mövcud vəziyyət, yeni və gələcək trendlərin, müasir bank məhsullarının, komplayns sahəsindəki yeniliklər və risklərin, həmçinin sadalananların mövcud hüquqi çərçivəyə uyğunluğu və adaptasiyası imkanlarının, bu proseslərin bankların maliyyə dayanıqlığının daha da gücləndirilməsinə təsiri məsələlərinin, eləcə də digər əlaqədar mövzuların müzakirə edildiyi platforma olmaqdır.

Forum 6 paneldən ibarət olmaqla, "Nağdsız iqtisadiyyat: nailiyyətlər və çağırışlar", "Bankçılıq – rəqəmsallaşmaya doğru", "Bankçılığın transformasiyasının müxtəlif tərəfləri", "Yeni ödəniş dünyası", "Komplayns və tənzimləmə riskləri", "Nağdsız və rəqəmsal iqtisadiyyatın tənzimlənməsi" mövzularını əhatə edəcək. Forumda dövlət qurumlarının, kommersiya banklarının yuxarı menecmentinin, yerli və xarici biznes və ictimai təşkilatların rəhbərlərinin, beynəlxalq maliyyə institutlarının və xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələrinin, həmçinin ABŞ, Yaponiya, Avropa, Çin və MDB ölkələrindən 100-dək beynəlxalq təşkilatların və nüfuzlu şirkətlərin nümayəndələri iştirak edəcək.

İştirakçılar və spikerlər arasında "Mastercard", "Cross", "Oracle", "BS/2", "Zolotaya Korona", "Tieto", "Group-IB", "Solanteq", "Dell", "Commerzbank", "Terrasoft", "PayPorter", "ihs Teknoloji", EFSE", "Wallyt", "S&P Global Ratings", "Pafilia", "Spektr Centre for Research and Development", "Simbrella", "Diebold Nixdorf", "Polish Bank Association", "RDTEX", "FICO Tonbeller", "Qulix", "IDNT", "Adecco" və sair maliyyə-texnologiya və digər şirkətlərinin nümayəndələri də var.

# Центральный банк привлекает 150 миллионов манатов




28 октября Центральный банк Азербайджана (ЦБА) проведет депозитный аукцион по привлечению инвестиций.
Как сообщили в ЦБА, на гибридном аукционе предусматривается привлечение средств в размере 150 миллионов манатов. Срок депозитного аукциона 14 дней. Процентные ставки аукциона, который пройдет по торговой системе Bloomberg, составят 6,01-7,74 процента.

## Азербайджанские экспортеры в 2017-2019 гг получили заказов на $1,4 млрд.

AZEXPORT.AZ MADE IN AZERBAIJAN

Азербайджанские производители получили в январе-сентябре 2019 года посредством портала Azexport.az заказы на экспорт продукции на общую сумму $436,4 млн, отмечается в данных Центра анализа экономических реформ и коммуникаций.
В том числе, в сентябре 2019 года объем полученных заказов составил на сумму $37,1 млн.
В целом, с 1 января 2017 года по 1 октябрь 2019 года заказы на экспорт продукции достигли $1 млрд 425,5 млн.
Центр анализа экономических реформ и коммуникаций Азербайджана в декабре 2016 года запустил портал Azexport.az.

## Azpromo отберет 30 компаний для участия на выставке в ОАЭ

Азербайджанские компании будут представлены на продовольственной выставке «Gulfood 2020» в ОАЭ (Дубай), которая пройдет 16-20 февраля 2020 года.
«30 азербайджанских компаний будут представлены на выставке «Gulfood 2020» в Дубае, единым стендом «Made in Azerbaijan».
Среди них компании-производители пищевой продукции», - сообщили агентству «Интерфакс-Азербайджан» в Азербайджанском фонде поощрения

azpromo

экспорта и инвестиций (Azpromo).
Компании, желающие принять участие на выставке, должны пройти соответствующий конкурс. Максимальное число компаний, которые будут отобраны для участия в выставке, составит 30.
Документы необходимые для участия в конкурсе должны быть представлены не позднее 29 ноября.
Отбор будет проводиться по нескольким критериям:
- производственный потенциал представляемой на выставке продукции, экспортный потенциал, наличие опыта по экспорту продукции.

## В Харькове откроется Азербайджанский культурный центр



Харькове откроется культурное представительство Азербайджана. Об этом, как передает Trend со ссылкой на SQ, сообщили 29 октября в ходе встречи мэра Харькова Геннадия Кернеса с послом Азербайджана Азером Худиевым.
Также на встрече шла речь о сотрудничестве в области туризма и участии азербайджанского бизнеса в украинской экономике.
"В ближайшее время мы планируем организовать в Украине экономический форум, чтобы найти реальные точки соприкосновения и подписать обоюдовыгодные контракты", - сказал Худиев.
Азербайджанский культурно-информационный центр откроется восьмого ноября.

## Украина рассчитывает на углубление энергетического сотрудничества с Азербайджаном

Об этом сказал в интервью Trend советник по экономическим вопросам посольства Украины в Азербайджане Сергей Штелюк.
"В контексте успешной реализации Азербайджаном проекта "Южный газовый коридор" (ЮГК), который обеспечит доступ азербайджанского газа на рынки европейских стран, Украина рассчитывает на углубление энергетического сотрудничества с Азербайджаном в этой сфере.
С введением в эксплуатацию Трансадриатического газопровода (TAP), а также интерконектора Греция-Болгария (IGB) будут созданы условия для транспортирования азербайджанского газа в страны Юго-Восточной Европы", - сказал он.
Штелюк отметил, что с присоединением к проекту ЮГК Румынии, в



перспективе Украина будет иметь возможность получать азербайджанские энергоносители по маршруту Болгария-Румыния-Украина.
В этой связи ведется отработка проектов поступления прикаспийского природного газа в рамках реализации 2 и 3 фаз расширения проекта ЮГК, добавил он.
Отметим, что проект "Южный газовый коридор" предусматривает создание трубопроводной инфраструктуры для транспортировки азербайджанского газа, добываемого в рамках разработки месторождения "Шах Дениз-2", через Турцию в Европу.

# В МИРЕ

## Эксперт дал прогноз мирового потребления энергии



Согласно прогнозам, к 2040 году мировое потребление энергии увеличится на 30% по сравнению с 2017 годом.
Об этом сказал главный экономист по России и СНГ Владимир Дребенцов, сообщает в среду Trend с мероприятия, посвященного прогнозу развития энергетики до 2040 года.
"Одной из основных причин увеличения использования энергоресурсов является глобальный рост населения", - заявил он.
Он также подчеркнул, что увеличение расхода энергоресурсов также окажет влияние на рост доходов населения.
Отметим, что 30 октября 2019 года в Баку проходит мероприятие, посвященное статистическому обзору мировой энергетики и прогнозу развития энергетики до 2040 года.

## В Еврозоне замедлился рост реальных доходов



Рост реальных доходов домохозяйств в еврозоне и в целом в ЕС замедлился во II квартале, сообщил Eurostat.
Согласно данным статистического ведомства во II квартале 2019 г. реальный доход домохозяйств в расчете на душу населения в еврозоне вырос на 0,4% после роста на 0,6% в I квартале, передает Trend со ссылкой на Вести.
Реальное потребление домохозяйств в расчете на душу населения во II квартале выросло на 0,2% после аналогичного роста в I квартале.
В целом в 28 странах Евросоюза повышение реальных доходов в апреле-июне составило 0,2% после роста на 0,3% кварталом ранее. Реальное потребление выросло на 0,4% после роста на 0,3% в январе-марте.

## Россияне назвали размер пенсии для достойной жизни в старости



Россияне смогут вести достойную жизнь на старости, если средний размер пенсии составит 40 тысяч рублей. Об этом пишет ТАСС со ссылкой на исследование портала по поиску работы Superjob.
Ожидания у мужчин от пенсии выше, чем у женщин. Так, по словам мужчин, им для достойной жизни необходимо 42,1 тысячи рублей, а женщинам только 37,5 тысячи.
Россияне старше 45 лет считают, что для достойной жизни на пенсии нужно 43 тысячи рублей в месяц. Между тем, по мнению молодежи в возрасте до 24 лет, для достойной жизни хватит и 32,6 тысячи рублей.
Как отмечается в исследовании, чем больше у россиянина зарплата, тем выше его запросы на размер пенсии. Так, у жителей страны с зарплатой от 80 тысяч рублей уровень пенсии для комфортной жизни составляет 44,3 тысячи рублей. У россиян с зарплатой менее 30 тысяч рублей — на уровне 33 тысяч.
По данным Пенсионного фонда России, средний размер пенсии по старости неработающего пенсионера в стране в 2019 году составляет 15,4 тысячи рублей.

## Миру предрекли избыток нефти

Мировой рынок нефти столкнется с избыточными поставками в 2020 году, заявил директор по энергетическим рынкам и безопасности Международного энергетического агентства (МЭА) Кейсуке Садамори, которого цитирует CNBC.
«Если ничего не изменится, мы, вероятно, увидим профицит, если не будет очень сильного восстановления роста спроса», — отметил Садамори. По его словам, в следующем году на рынке сойдутся два разнонаправленных фактора: рост добычи и слишком слабый рост спроса.
90 лет назад случился крупнейший кризис в истории человечества. Его избежал только СССР
Ранее в отчете МЭА снизило собственный прогноз относительно роста спроса на нефть в 2019-2020 годах на 100 тысяч баррелей в год — до 1,2 миллиона баррелей.
Главными причинами снижения спроса Садамори назвал макроэкономические проблемы: торговую войну США и Китая и выход Великобритании из Евросоюза.

# KREATİV İQTİSADİYYAT: DÜNYA REALLIĞI



**(əvvəli ötən sayımızda)**

Kreativ iqtisadiyyat – bu anlayışın arxasında nə dayanır? Niyə şirkətlərə yeni və qeyri-adi düşünən insanlar lazımdır? Jürgen Salenbakerin "Şəxsi brendini yarat" adlı kitabında dünya iqtisadiyyatının kreativliyə doğru hərəkəti haqqında danışılır.

Dizayn, marketinq, proqram təminatı və ya əyləncə sənayesinin işlənib hazırlanması kimi kreativ xidmətlər sferası üçün xarakterik olan bir meyil mövcuddur.

2000 və 2008-ci illər arasında ənənəvi xidmətlərin artım sürəti hər il təxminən 13-15%, reklam, layihələndirmə və ya audiovizual servislər kimi kreativ xidmətlərin artım sürəti isə həmin dövrdə hər il 17% artmışdır. Bu məlumatlar xidmətlərə meyilli və biliklərə əsaslanan iqtisadiyyatdan ayrı-ayrı adamların kreativliyinə söykənən iqtisadiyyata keçidi əks etdirir.

Bu yeni iqtisadiyyat həm makro, həm də mikrosəviyyədə iqtisadiyyat və texnologiyanı, mədəniyyəti və cəmiyyəti əlaqələndirir. Onun paradiqmasında əsas cəhət qloballaşmanın inkişafına səbəb olan iqtisadi artımın yaranması üçün zəruri olan güclü mühərriklər kimi kreativliyin qəbul edilməsi və informasiyanın əlçatanlığıdır. Bu isə yenilikdir: biz kreativliyi qiymətləndirməyə başlayırıq. Cəmi bir ideya şirkətin biznesinin artımını təmin edə bilər. Kreativlikdən gələn gəlirin böyük olması mümkündür. Kreativlik və innovasiya qabiliyyəti, yəni biznes-kontekstə ideyanın tətbiq edilməsi bacarığı XXI əsrdə inkişaf edən kreativ iqtisadiyyatın əsası rolunu oynayır.

BMT-nin Ticarət və inkişaf üzrə konfransında hazırlanmış "Kreativ iqtisadiyyat haqqında mənzərə ***- 2010" yeni kreativ iqtisadiyyatın istiqamətlərini müəyyən etdi:***

***- yaradıcılığın dəyərinə əsaslanan inkişaf etməkdə olan konsept;***

***- iqtisadi artıma və inkişafa qadir olması;***

***- mənfəətin artması, iş yerlərinin yaradılması və müxtəlif sosial qrupların əyləncə etməsinin köməyilə ixracatdan yaranan gəlirin əldə olunması, mədəni çoxcəhətliliyin istifadə edilməsi və insan kapitalının inkişafı üçün potensiala malik olması;***

***- iqtisadi, mədəni və sosial aspektlərin texnologiya, əqli mülkiyyət və turizmlə əlaqələndirilməsi;***

***- dünya iqtisadiyyatının makro və mikro səviyyələrinə, fənlərarası yanaşmadan istifadə edən və inkişafa istiqamətlənən biliklərə əsaslanan iqtisadi tədbirlərin məcmusu.***

Kreativ iqtisadiyyatın əsasında aşağıdakılarla müəyyən edilən kreativ müəssisələr durur:

***- əsas başlanğıc məlumatlar kimi intellektual kapital və kreativlikdən istifadə edən məhsul və xidmətlərin işlənib hazırlanması, istehsalı və satışı tsiklləri;***

***- incəsənətdə cəmləşən, lakin onunla məhdudlaşmayan biliklərə əsaslanan tədbirlərin məcmusu və bu tədbirlərdən yaranan gəlir ticarət və ya əqli mülkiyyət hüquqları hesabına təmin olunur;***

***- kreativ kontentlə, iqtisadi dəyərlə və bazarda müəyyən məqsədlə maddi məhsulların və qeyri-maddi əqli və ya yaradıcı xidmətlərin yaradılması;***

***- dünya ticarətinin yeni, dinamik inkişaf etməkdə olan sektoru.***

2001-ci ildə ilk dəfə Con Hokins öz kitabında kreativliklə iqtisadiyyat arasında əlaqəni izah edir. Con Hokins hesab edir ki, "nə kreativlik, nə də iqtisadiyyat yeni bir şey deyil, lakin yeni bir cəhət onlar arasında qarşılıqlı fəaliyyətin təbiəti və miqyasıdır və o, nadir əşya və maddi dəyərlər yaratmaqdan ötrü əlaqələndirilir".

Hokins "kreativ müəssisələrə" müxtəlif növ tədqiqatları, elm və texnika sahəsində işləmələri əlavə edir.

Riçard Florida isə fərdiliyi, istedadı, çoxcəhətliliyi və açıqlığı yüksək qiymətləndirən peşəkarların, alimlərin və yaradıcı peşə nümayəndələrinin inkişaf etməkdə olan sosial, kreativ sinfini təsvir etmişdir. Kreativ sinfin mövcud olması xüsusilə kreativ şəhərlər adlanan şəhər rayonlarında iqtisadi, sosial və mədəni dinamikanı doğurur. Florida hesab edir ki, belə kreativ şəhərlərdə kreativ sinfin nümayəndələri fikirləşməkdən, planlaşdırmaqdan və imkanlardan yaradıcılıqla istifadə etməkdən ötrü onlara lazım olan şəraiti tapırlar. O, kreativ sinfə elm, mühəndislik, memarlıq, dizayn, təhsil, incəsənət, musiqi, əyləncə sferasında məşğul olan insanları, eləcədə səhiyyə, maliyyə və qanun sahəsində çalışan geniş kreativ peşəkarlar qrupunu daxil edir ki, onların da iqtisadi funksiyalarına yeni ideyaların, texnologiyaların və ya kontentin yaradılması aiddir. Florida xüsusilə kreativ xidmətləri qeyd edir ki, onlar dizayn, reklam və əyləncə sənayesi kimi biznes sahələrinə də təsir edir və bu sahələr əlavə dəyər yaradır. Onlar praktiki olaraq bütün sənaye sahələrinə qoyulan innovasiyaların bələdçisi rolunu oynayırlar. Bununla əlaqədar o, sübut edir ki, "iqtisadiyyat korporativ meyilli sistemdən" insanları hərəkətə gətirən sistemə keçid edir.

Biz Con Hokinsin və Floridanın fikirlərini davam etdirərək qeyd edərdik ki, cəmiyyətin və iqtisadiyyatın problemlərini həll etməkdən ötrü fikirləşməyə, planlaşdırmağa və yaradıcı fəaliyyət göstərməyə qadir olan insanlara ehtiyac var. Kreativlik ölkələrin, şəhərlərin və şirkətlərin idarə edilməsinə kömək edir, zamanımızın ictimai problemlərinin texnoloji, ideoloji və sosial qərarlarının işlənib hazırlanmasında gələcək uğuru müəyyən edir. Əvvəllər əlavə müsbət cəhət hesab edilən kreativlik bu gün qlobal iqtisadiyyat üçün çox vacibdir, çünki o, mədəni, iqtisadi və sosial inkişaf üçün lazımdır.

**(davamı var...)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Qeyri-neft sektoru üzrə ixracın dəyəri 136 milyon dollar təşkil edib

Sentyabrda qeyri-neft sektoru üzrə ixracın dəyəri 136 milyon ABŞ dolları olub.

Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın oktyabr sayında deyilir.

Bildirilir ki, ötən ilin eyni ayı ilə müqayisədə bu ilin sentyabrında qeyri-neft sektoru üzrə ixracın dəyəri 22 milyon dollar və ya 19 faiz artıb. Cari ilin sentyabrında qeyri neft-qaz məhsulları üzrə ən çox məhsul Rusiyaya (38,5 milyon dollar), Türkiyəyə (25,4 milyon dollar), İsveçrəyə (13,9 milyon dollar), Gürcüstana (12,5 milyon dollar) və Çinə (5,4 milyon dollar) ixrac olunub.




Bu ilin sentyabrında qeyri-neft sektoru üzrə ixracda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda 13,1 milyon dollar) birinci, qabığı təmizlənmiş meşə fındığı (11,7 milyon dollar) ikinci, emal olunmamış aşqarlanmamış alüminium (8,1 milyon dollar) üçüncü yerdə qərarlaşıb.

# Türkiyə cari ildə 6 milyard kubmetrdən çox Azərbaycan təbii qazı alıb



Avqust ayında Türkiyə Azərbaycandan 735 milyon kubmetr təbii qaz idxal edib.

Bu barədə Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatı (EPDK) məlumat yayıb. Bildirilir ki, avqustda Türkiyənin Azərbaycandan idxal etdiyi qazın həcmi iyulla müqayisədə 165 milyon kubmetr azalıb. Azərbaycan avqustda Türkiyənin ən çox qaz idxal etdiyi ölkələr sırasında Rusiyadan (1,45 milyard kubmetr) sonra ikinci olub.

Bu ilin yanvarında Türkiyə 808,3 milyon kubmetr, fevralda 683,2 milyon kubmetr, martda 772,4 milyon kubmetr, apreldə 724,8 milyon kubmetr, mayda 770 milyon kubmetr, iyunda 650,6 milyon kubmetr, iyulda 899,9 milyon kubmetr, avqustda isə 735 milyon kubmetr Azərbaycan qazı alıb. Səkkiz ayda qardaş ölkənin Azərbaycandan təbii qaz idxalının həcmi 6 milyard 45 milyon kubmetr təşkil edib.

Qeyd edək ki, keçən il Türkiyəyə Azərbaycandan 7 milyard 527 milyon kubmetr təbii qaz ixrac olunub.

# Əmanətlərin Sığortalanması Fondu kreditorlara müraciət edib

Əmanətlərin Sığortalanması Fondu (ADIF) ləğv prosesində olan banklarda 17 min manat ekvivalentinədək kreditor tələbi olan fiziki şəxslərə müraciət edib.

Fonddan bildirilib ki, ləğv prosesində olan "Atrabank" ASC", "Royalbank" ASC, "Kredobank" ASC, "Zaminbank" ASC, "Bank of Azerbaijan" ASC, "Qafqaz İnkişaf Bankı" ASC, "Bank Standard" KB, "Yunayted Kredit Bank" ASC, "Texnikabank" ASC, "Dəmirbank" ASC və "Gəncəbank" ASC-də fiziki şəxslərin 17 min manat ekvivalentinədək olan kreditor tələblərinin ödənilməsi davam edir. Kreditor tələbinin ödənilməsi nağdsız qaydada "Kapitalbank" ASC vasitəsilə həyata keçirilir.

Ləğv prosesində olan banklarda kreditor tələbi olan fiziki şəxslərdən "Kapitalbank" ASC-nin müvafiq filiallarına şəxsiyyətlərini təsdiq edən sənədlə müraciət edilməsi xahiş olunur.

Azərbaycan Əmanətlərin Sığortalanması Fondu
ADIF
Azerbaijan Deposit Insurance Fund

# BP-nin üçüncü rübdəki xalis mənfəəti azalıb

BP-nin üçüncü rüb üzrə konsolidə olunmuş xalis mənfəəti geriləyib.




BP-nin ötən rübdəki xalis mənfəəti 2,3 milyard dollar olub. Mənfəətin azalmasına neftin aşağı qiymətləri təsir edib.

Şirkətin ikinci rübdəki xalis mənfəəti 2,81 milyard dollar, ötən ilin üçüncü rübündəki mənfəəti isə 3,8 milyard dollar olmuşdu.

# Siqaret istehsalı artır

Azərbaycanda gələn il 10 milyard ədəddən siqaret və papirosların istehsal ediləcəyi proqnozlaşdırılır ki, bu da 2019-cu il üçün olan gözləntilərlə müqayisədə iki dəfə çoxdur.

Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin zərfində verilən məlumata görə, bu il ölkədə 5 milyard ədədə yaxın siqaret və papirosların istehsalı nəzərdə tutulub.

Məlumata əsasən, bu göstəricinin ilbəil artacağı proqnozlaşdırılır. Belə ki, 2021-ci ildə ölkədə 10 milyard 156 milyon ədəd, 2022-ci ildə 10 milyard 370 milyon ədəd, 2023-cü ildə isə 10 milyard 649 milyon ədəd siqaret və papirosların istehsal olacağı gözlənilir.

Qeyd edək ki, 2018-ci ildə Azərbaycanda 4 milyard 949,7 milyon ədəd siqaret və papiros istehsal edilib.

Bundan başqa, proqnozlara əsasən, respublikada fermentləşdirilmiş tütünün də istehsalında artım dinamikası qeydə alınacaq. Gözləntilərə əsasən, 2019-cu ildə Azərbaycanda 4 959,4 ton, 2020-ci ildə 6 441,5 ton, 2021-ci ildə 8 265,7, 2022-ci ildə 8 607,7 ton, 2023-cü ildə isə 8 778,7 ton fermentləşdirilmiş tütün istehsal ediləcək.

Xatırladaq ki, 2018-ci ildə ölkədə 3 501,7 ton fermentləşdirilmiş tütün istehsal edilib.



# Ən çox ticarət əməliyyatları aparılan Körfəz ölkələrinin adları açıqlanıb

Bu ilin 9 ayında Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı Körfəz ölkələri sırasında ilk üçlükdə İran, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Səudiyyə Ərəbistanı qərarlaşıb.

Hesabat dövründə ölkəmizin İranla ticarət dövriyyəsinin həcmi 390 milyon 662 min ABŞ dolları, BƏƏ ilə 48 milyon 186 min dollar, Səudiyyə Ərəbistanı ilə 9 milyon 29 min dollar olub. İran və Birləşmiş Ərəb Əmirlikləri ilə ticarət dövriyyəsi ötən ilə nisbətən artıb, Səudiyyə Ərəbistanı ilə isə azalıb.




Bu ölkələr, eyni zamanda, Azərbaycanın ən çox məhsul idxal etdiyi Körfəz ölkələri sırasında da ilk üçlükdədir. İrandan idxalın dəyəri 362 milyon 914 min dollar, BƏƏ-dən 33 milyon 810 min dollar, Səudiyyə Ərəbistanından isə 8 milyon 99 min dollar təşkil edib. Ölkəmiz Səudiyyə Ərəbistanından idxalı azaltsa da, İran və BƏƏ-dən idxalı artırıb.